**UOT 94**
**https://doi.org/10.59849/2218-4783.2026.1.80**

# 1920-1924-CÜ İLLƏRDƏ NAXÇIVANDA SOVET İDARƏÇİLİYİ

# SOVIET ADMINISTRATION IN NAKHCHIVAN, 1920-1924

**Yeganə MƏMMƏDOVA***

## XÜLASƏ

Naxçıvanda Sovet hakimiyyətinin qurulması Naxçıvanın dövlətçilik tarixində özünəməxsus yer tutur. Ali dövlət hakimiyyəti orqanı kimi gördüyü işlər o dövrün tələblərinə uyğun olsa da Naxçıvan öz milli varlığını qoruyub saxlamış, ana vətən Azərbaycanın tərkibində mübarizəsini davam etdirmişdi.

**Açar sözlər:** *Naxçıvan İnqilab Komitəsi, dövlət hakimiyyət orqanı, Xalq Komissarlar Soveti, dövlət strukturları.*

## ABSTRACT

The establishment of Soviet power in Nakhchivan occupies a distinctive place in the history of Nakhchivan's statehood. Although the activities of the highest state authority bodies were in accordance with the requirements of that period, Nakhchivan preserved its national identity and continued its struggle as part of the motherland, Azerbaijan.

**Keywords:** *Nakhchivan Revolutionary Committee, state authority body, Council of People's Commissars, state structures.*

## GİRİŞ

XX əsrin əvvəlləri Rusiya imperiyası və onun əsarətində olan xalqlar üçün milli-azadlıq mübarizəsi öz müqəddəratını təyin etmək baxımından geniş imkanlar yaradırdı. Azadlığına düşkün xalq olaraq Azərbaycan xalqı bu mübarizənin önündə gedirdi. Xalqlar həbsxanası olan Rusiyada Sovet hakimiyyəti qələbə çalmış, "fəhlə kəndli hökuməti" qurulmuşdu. Yaranmış əlverişli şəraitdən istifadə edən Azərbaycan xalqı ayağa qalxaraq öz müstəqilliyini elan etdi. Müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Lakin bu Cümhuriyyətin ömrü uzun olmadı. Çünki Sovet hakimiyyəti bolşevizmdən uzaq, demokratik dəyərləri əsas götürən, ən əsası müstəqilliyi, azadlığı meyar seçən bir respublikanı qəbul edə bilməzdi. Çoxmillətli Bakıda olan bolşevik fraksiyası, erməni daşnaklar da AXC-nin varlığına təhəmmül edə bilməzdi. Cəmi 23 aydan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. 28 aprel 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti quruldu. Bu xəbər qədim türk-oğuz yurdu Naxçıvana da çox tez çatdı. Lakin birmənalı qarşılanmadı. Çünki, Naxçıvanda həmin dövrdə çox mürəkkəb şərait hökm sürürdü. Türk qoşun dəstələrinin əvvəldən burda yerləşməsi, XI Qızıl ordunun gəlməsi xəbəri, ermənilərin Naxçıvana durmadan etdiyi basqınlar, xarici dövlətlərin bu bölgəyə maraqları ümumi vəziyyəti daha da çətinləşdirdi. Kazım Paşanın ciddi cəhdlərinə baxmayaraq Ermənistan hökumətinin ordu hissələri Şahtaxtını ələ keçirdilər və iyul ayının 27-də Naxçıvanın 48 saat ərzində təhvil verilməsi barədə ultimatum göndərdilər. Ermənistanın hərbi naziri Ter-Minasyanın imzaladığı 15 bənddən ibarət olan ultimatumda Naxçıvan və Şərur qəzalarının Ermənistan Respublikasının ayrılmaz hissəsi elan etməsi və bütün

* AMEA Naxçıvan Bölməsi, e-mail: ymemmedova49@gmail.com
ORCİD: 0000-0001-5693-3748

sakinlərinin özlərini Ermənistan respublikasının vətəndaşları hesab etməsi tələb edilirdi. Ultimatumun ikinci bəndində deyilirdi ki, Naxçıvan Milli Komitəsi və qəzanın sakinləri öhdəlik qəbul edirdi ki, türkləri və Vedibasardan, Zəngibasardan, Şərurdan olan qaçqınları və Azərbaycandan olan təşviqatçıları qəzaya buraxmasınlar [Həsənli, 2012, s. 257]. Naxçıvanda vəziyyət çox mürəkkəbləşmişdi. Daşnaklar Naxçıvan şəhərinə girə bilməsələr də Şahtaxtını artıq zəbt etmişdilər. Minlərlə müsəlman əhalisi Şahtaxtından İran ərazisinə keçmək məcburiyyətində qalmışdı. Yüzlərlə müsəlman kəndi yerlə yeksan edilmişdi. Əhali aclığın və qarətin məngənəsində sıxılırdı. Naxçıvanda yerli əhaliyə qarşı edilən vəhşiliklər Bakıdakı Azərbaycan Kommunistləri arasında güclü milli duyğular formalaşdırdı. N.Nərmanovun xalq xarici İşlər komissarı Çiçerinə yazdığı teleqramda da Naxçıvan, Culfa, Qarabağ və Zəngəzur ərazilərinin Azərbaycanın bir hissəsi olduğu vurğulanırdı.

## 1920-1924-CÜ İLLƏRDƏ NAXÇIVANDA SOVET İDARƏÇİLİYİ

1920-ci il iyulun 28-də rus süngüsünün gücü ilə Naxçıvanda Sovet hakimiyyəti elan edilsə də onun ərazi və təsir miqyası da az idi. Həmin gün Mirzəli bəy Bəktaşov, A.Qədimov, F.Mahmudbəyov, Qulu Məmmədov, H.Əliyev, Əhməd Əzimov, N.Nəcəfov və başqalarından ibarət Naxçıvan inqilab komitəsi yaradılır. Komitənin N.Nərimanova ünvanlanan məktubunda bildirilir ki, "Naxçıvan ölkəsi özünü Azərbaycan SSR-nın ayrılmaz hissəsi hesab edir". Naxçıvan bölgəsinin çox hissəsini əlində saxlayan ermənilər daşnak Ermənistanının təsiri ilə ərazi iddialarına yenidən miqyas verərək əsasən Azərbaycan rəhbərliyində çoxluq təşkil edən ermənilərə və onların havadarları Leninə, Stalinə, Orconikidzeyə, Kirova və onların Azərbaycanlı nökərlərinə güvənirdilər. Çoxsaylı gedişlər müxtəlif səviyyədə keçirilən müşavirələr erməni niyyətlərini doğrultmaqda idi [Əliyev, 2004, s. 178].

Ermənistan Azərbaycan torpaqlarını işğal etmək siyasətindən əl çəkmirdi. 1920-ci ilin ortalarında daşnaklar yenidən Naxçıvan diyarına hücuma keçdi. Bu hücum nəticəsində Ordubad bölgəsində yüzlərlə adam qətlə yetirildi. Sentyabrın 18-də türk qoşunlarının və yerli hərbi birləşmələrin köməyi ilə ermənilərin özbaşınalıqlarına son qoymaq üçün Ordubada hücum edildi və şəhər düşmənlərdən azad edildi. Beləliklə, 1920-ci il noyabrın 7-də daşnakların növbəti təcavüzünə cavab olaraq XI Qırmızı ordunun Qafqaz polkunun hissələri, türk qoşun dəstələri, yerli əhalidən təşkil olunmuş 1500 nəfərlik könüllü əsgərlərlə birlikdə H.Şadlinskinin "Qırmızı Tabor" dəstələri, həmçinin İrandan Naxçıvana qayıtmış üsyançı şərur qaçqınları düşmənə qarşı əks-hücuma keçdilər. Əks-hücum bir neçə istiqamətdə – Şərur, Qıvraq, Qarabağlar və indiki Çalxanqala kəndləri istiqamətində başlandı. Hücum o qədər gözlənilməz və sarsıdıcı olmuşdu ki, daşnak ordularının vahimə içərisində öz mövqelərini qoyub qaçmaqdan başqa çıxış yolu qalmamışdı [Sadiqov, 1995, s. 38].

Bütün bunlara baxmayaraq ermənilərin bölgədə törətdikləri vəhşiliklərin sonu görünmürdü. Vəhşiliklərin miqyası da çox böyük idi. Zəngibasarda, Vedibasarda, Dərələyəzdə, Ordubadda, Culfada, Şərur və Şahtaxtıda kəndlər dağıdılıb yandırılmış, insanlar qoca, uşaq, qadın demədən təhqir edilmiş, öldürülmüş, əsir götürülmüşdür. Naxçıvanla bağlı Azərbaycan rəhbərliyinin etirazına baxmayaraq, Moskva ikili siyasət yeridirdi. Belə ki, onlar hələlik Zəngəzurun və Naxçıvanın Ermənistana birləşdirilməsinə tam razılıq vermirdilər. 1920-ilin noyabrın 9-da Bakı şəhərində keçirilən Azərbaycan RK (b)P MK və Bakı komitəsinin birgə plenumunda çıxış edən Stalin bildirdi ki, Zəngəzur və Naxçıvanı Ermənistanın indiki hökumətinə vermək olmaz. Orada Sovet hakimiyyəti yarandıqdan sonra isə vermək olar. Eyni fikri bir qədər başqa formada S.Orcenikidze belə ifadə edirdi: "Hansısa Zəngəzur – məhsulsuz dağlar, taxılı yox, suyu yox. Orada heç nə yoxdur. Hansısa Naxçıvan – bataqlıq, malyariya və başqa heç nə. Hansısa Dağlıq Qarabağ. Nə var bu Dağlıq Qarabağda? Heç nə yoxdur" [Naxçıvan tarixi. Üç cilddə, II c., 2014, s. 338]. Naxçıvanın siyasi dövlət quruluşunun adında da müxtəlif dəyişikliklər edilmişdi. XI ordunun işğalından sonra Naxçıvan SSR-sı elan edildi. Bölgədə sovet hakimiyyətinin dayaqlarını möhkəmlətmək məqsədi ilə 1921-ci il yanvarın 21-də Naxçıvan diyar İnqilab komitəsi yaradıldı və partiya təşkilatının rəhbərliyi altında fəa-

liyyət göstərməyə başladı. 1921 ilin sentyabrına qədər Xalq komissarlar Soveti yaranmadı, sadəcə olaraq mövcud xalq komissarlıqlarının fəaliyyətinə rəhbərliyi Naxçıvan diyar İnqilab komitəsi həyata keçirirdi.

AK(b)P MK-nin 10 sentyabr 1921-ci il tarixli qərarı ilə Naxçıvan SSR Xalq Komissarlar Soveti yaradıldı. İlk dəfə olaraq Naxçıvanda 8 komissarlıq: ərzaq, yer quruluşu, maliyyə, səhiyyə, maarif, daxili işlər, hərbi, fəhlə-kəndli müfəttişliyi xalq komissarlıqları yaradıldı. 1921 ilin oktyabrın 11-dən sonra daha 10 yeni komissarlıq yaradıldı: xarici işlər, rabitə, əmək, daxili ticarət, ictimai təminat, ədliyyə, xarici ticarət, fövqəladə komissiya, xalq təsərrüfatı şurası və hərbi tribunal.

Yeni yaradılan XKS ali icraedici və sərəncamverici orqan olub Naxçıvan Diyar İnqilab komitəsinin qarşısında məsul idi. Xalq Komissarlar Soveti eyni zamanda dekretlər, qərarlar, əmrlər və müxtəlif normativ aktlar verən qanunvericilik hüququna da malik idi. 1921-ci ilin sonunda Naxçıvanda sovetlərə seçkilər keçirildi, bununla əlaqədar inqilab komitələri və yoxsul komitələri ləğv edildi [История государства и права Азербайджанской ССР 1920-1934 гг: 1973, s. 294].

Ümumiyyətlə 1920-1924-cü illər Naxçıvanın ictimai və siyasi həyatında çox qalmaqallı olmuşdur. Yeni rejim xüsusi narahatçılıq, iğtişaş və etirazla qarşılandı. Təzyiqlər, təqiblər, günahsız adamların incidilməsi, evlərin qarətləri, şəxsiyyətli adamların sındırılması, sürgün edilməsi adi hala çevrilmişdi. Naxçıvan İnqilab Komitəsinin həyata keçirdiyi tədbirlər əhali arasında narazılıqla qarşılanırdı. Naxçıvanda dövlət hakimiyyətinin yeni forması kimi İnqilab komitəsi öz funksiyasını yerinə yetirməkdə zorakılıqlara da yol verirdi. Naxçıvan inqilab komitəsinin sədri kimi Fyodorov xüsusi amansızlıqla xan, bəy ailələrinə, onların nümayəndələrinə divan tuturdu. Milli zəmində əhalinin narazılığı hakimiyyətdə qeyri-müsəlman vəzifəli şəxslərin ucbatından daha da artırdı. Bütün bu narazılıqlara baxmayaraq Naxçıvanda dövlət hakimiyyəti inkişaf edirdi.

1922-ci il yanvarın 25-də keçirilən I Ümumnaxçıvan Sovetlər qurultayı diyarın təsərrüfat və mədəni quruculuğuna dair mühüm qərarlar qəbul etdi. Qurultayın qərarı ilə Naxçıvan İnqilab Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə komitəsi və Naxçıvan SSR XKS yaradıldı. Müəyyən edildi ki, Naxçıvan SSR-də ali dövlət hakimiyyəti orqanı Sovetlər Qurultayıdır, qurultayarası dövrdə ali qanunverici, sərəncamverici və nəzarətedici dövlət hakimiyyət orqanı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsidir. Ümumi idarəçilik işləri Naxçıvan MİK tərəfindən yaradılan və onunla sıx əlaqə saxlayan, onun qarşısında məsul olan XKS-ə məxsusdur [Məmmədov, 2012, s. 196].

1921 il aprelin 4-də Naxçıvan SSR-in yeni hökuməti təşkil edildi. Həmin hökumətin tərkibi belə idi:

1. Xalq Komissarları Sovetinin sədri Abbas Qədimov (o, həm də İnqilab Komitəsinin sədri vəzifəsində saxlanılırdı).
2. Fövqəladə, daxili işlər, poçt, teleqraf komissarı Ş.Əliyev.
3. Naxçıvan qarnizonun rəisi Abbasqulu bəy Şadlinski.
4. Xalq Təsərrüfatı Şurasının sədri Mehdiyev.
5. Səhiyyə komissarı Ə.Abbasov.
6. Maliyyə komissarı Bənəniyarski.
7. Maarif və ədliyyə komissarı Ə.Rüstəmov.
8. Torpaq komissarı Hacılarov.
9. Ərzaq komissarı Məmmədov.
10. Fəhlə - Kəndli müfəttişliyi Musayev.

Naxçıvan SSR-in mövcud olduğu 1921-1924 illərdə hüquq və səlahiyyətləri daha geniş idi. Naxçıvan SSR-in İran, Türkiyə və eləcə də Zaqafqaziya Respublikaları ilə diplomatik və iqtisadi əlaqələri konsulluq və nümayəndəliklər vasitəsi ilə həyata keçirilirdi. Naxçıvanın Maku, Xoy və Təbriz şəhərlərində konsulluqları, Türkiyənin Qars şəhərindəki RSFSR konsulluğu yanında Naxçıvan Müvəkkilliyi yaradılmışdı. Türkiyənin Naxçıvanda hərbi nümayəndəliyi 1924-cü ilin iyulunadək, İranın Naxçıvandakı konsulluğu isə 1938-ci ilin noyabrın 17-nədək fəaliyyət göstərmişdir.

Makuda İsmayıl bəy, Camalbəyov Təbrizdə Qasımbəy Camalbəyov Naxçıvan SSR-in ilk konsulları olmuşlar. Qars şəhərində Naxçıvanın müvəkkili Balabəy idi. Naxçıvan SSR-in Bakı, Tiflis və İrəvan şəhərlərində də nümayəndəlikləri yaradılmışdı. Əziz Şərif 1922-ci ilin yanvarında Gürcüstan SSR-də Naxçıvanın nümayəndəsi təyin edilmişdi [Sadiqov, 1995, s. 26].

Naxçıvanda Sovet hakimiyyətinin qurulması əslində çox çətin beynəlxalq şəraitdə baş tutmuşdu. Baxmayaraq ki, xalqın milli-azadlıq ideyaları tapdalanmış, sovet süngüsü bölgəyə hakim kəsilmişdi, amma nəzərə alsaq ki, "böyük Ermənistan" xülyası ilə yaşayan, ac qurd kimi Naxçıvanı mühasirədə saxlayan erməni daşnak-quldurları hər an bölgəni ələ keçirmək üçün fürsət gəzirlər – bu zaman `Sovet hakimiyyətinin qurulması daha düzgün addım idi.

Bütün dövrlərdə Naxçıvan nəinki qonşu dövlətlər, həmçinin dünyanın digər dövlətləri üçün də çox böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə XX əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüşlər. Uzun müddət Naxçıvan diyarına göz dikən, bu ərazini "böyük Ermənistan"a qatmaq üçün cəhdlər göstərən erməni daşnaklarının arzuları gözlərində qalmış və bu xülyalarını gerçəkləşdirə bilməmişlər [Hacıyev, 2014, s. 46].

Nəticə. Naxçıvanda Sovet hakimiyyətinin qurulması Naxçıvanın dövlətçilik tarixində özünə məxsus yer tutur. Ali dövlət hakimiyyəti orqanı kimi gördüyü işlər o dövrün tələblərinə uyğun olsa da Naxçıvan öz milli varlığını qoruyub saxlamış, ana vətən Azərbaycanın tərkibində mübarizəsini davam etdirmişdir.

## ƏDƏBİYYAT


Əliyev, Ə. (2004). *Əlincə yaddaşı*. Elm və həyat.

Hacıyev, İ. (2014). Naxçıvanın Muxtariyyət statusu naxçıvanlıların inadlı mübarizəsi nəticəsində əldə edilmişdir. *Naxçıvan: ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalı*. Naxçıvan.

Həsənli, C. (2012). *Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1930)*. Adiloğlu.

*История государства и права Азербайджанской ССР (1920-1934 гг.)*. (1973). Элм.

Məmmədov, N.Z. (2012). *Azərbaycan dövlətçiliyi tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər)*. Bakı Universiteti.

*Naxçıvan tarixi* (2-ci cild). (2014). Əcəmi.

Sadiqov, S.H. (1995). *Naxçıvan Muxtar Respublikası tarixindən*. İrşad.



*(Tarix elmləri doktoru Emin Şıxəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 04.02.2026**
**Son variant 25.02.2026**